# Azərbaycanda qanunların aliliyi, ictimai-siyasi sabitlik ən yüksək səviyyədə təmin edilir



Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu sahəsində mühüm islahatlar həyata keçirilir. Hər kəsin qanun qarşısında bərabər olduğu ölkəmizdə insan hüquq və azadlıqları ən yüksək səviyyədə təmin edilir, vətəndaşların rahat yaşaması üçün hər cür şərait yaradılır. Təəssüf ki, bundan sui-istifadə edənlər də var. Elə son günlər Nardaranda baş verən hadisələr buna misaldır. Nardaran müasir Azərbaycanda, milli mənəvi və mütərəqqi ümumbəşəri dəyərlərin vəhdətini təşkil edən, dünya mədəni irsinin ayrılmaz parçasına çevrilən Bakının bir neçə kilometrliyində yerləşmiş orta əsr "anklavı" təəssüratı bağışlayır. Nardaran hüquqi dövlət anlayışını, tolerantlığın, konfessiyalar, dinlər, xalqlar və mədəniyyətlərarası harmoniyanın, multikultural dəyərlərin hökm sürdüyü Azərbaycanın sivil ictimai birgəyaşayış normalarını tam inkar edir. Bu orta əsr "anklavı" özünü Azərbaycandan daha çox dini-teokratik cəmiyyətlərə aid edir ki, bu da tam şəkildə Azərbaycan reallığına uyğun gəlmir. Nardaran arxaik yaşayış qaydaları, gerilik, eybəcər dini sektantlıq rəmzinə çevrilərək müasirliyi, elmi-texniki tərəqqi əsrini inkar edir.

Hazırda dünyada elmi-texniki sahədə gedən sürətli inkişaf Azərbaycana da öz müsbət təsirini göstərir. Ölkəmiz bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə nümunə kimi təqdim edilir. Ancaq məlum Nardaran hadisələri onu göstərdi ki, inkişafdan hələ də pay almayanlar var. Birinci minilliyin ortalarında Kərbəlada baş vermiş faciədən doğan ideologiyanı özlərinin həyat normasına çevirən, ancaq Dağlıq Qarabağ kimi ümummilli problemi yada belə salmayanlar Azərbaycan cəmiyyətinə nə verə bilərlər, onlarla bir yerdə necə yaşamaq olar?! Bu gün Nardaranda oturuşmuş terrorçular, radikal ekstremistlər "Tarix naminə ölüm" şüarını irəli sürür, kənd əhalisinin təfəkkürünü orta əsrlərin sxolastik dəyərləri, insanların həyatını xaricdən gələn və milli ideyamızı inkar edən yad ideologiya üzərində kökləməyə çalışırlar. Xarici dini mərkəzlərdən qidalanan bu miskin "təlimatçılar" elmi təhsili olmayan və zəif dünyagörüşlü sadə insanlara belə bir ideya aşılamağa çalışırlar ki, xilas onların dini spekulyasiyalarına qatılmaqdadır.

Bu cür terrorist qruplar təhsilin, maariçiliyin, müasirliyin zəif olduğu yerlərdə öz niyyətlərini reallaşdırmağa çalışırlar. Buna görə də Nardaranda qızları məktəbə getməyə qoymur, onları erkən yaşlarında ailə qurmağa məcbur edirlər. Buna görə də Nardaranda narkomaniya kimi sosial bəla geniş yayılıb. Beyni ifrat dini doqmalarla doldurulmuş, narkotik maddələrin təsiri altına salınmış insanlar terrorçuların və onların havadarlarının əlində ən yaxşı silahdır. Təsadüfi deyil ki, orta əsrlərdə Həsən Səbbah adlı şiə lideri öz müridlərinə narkotik verdikdən sonra onlara cənnət vəd edir və ölümə göndərirmiş. Məhz orta əsr sxolastikasının hökm sürdüyü Nardaran kimi yerlərdə xarici dini mərkəzlərin ideoloji təsiri özünü açıq büruzə verir, fanatik dini cərəyanlar güclənir, onlara qoşulanların sayı artır. Məhz Nardaran kimi orta əsr "anklavlarında" Mövsüm Səmədov, Taleh Bağırzadə kimi xarici dairələrin agentləri olan dini-siyasi avantüristlər Azərbaycana yad ideologiyanı təbliğ edə, özlərinə tərəfdar toplaya, terrorçu-ekstremist qruplar formalaşdıra və əhalini təhdid altında saxlaya bilirlər. Təsadüfi deyil ki, Azərbaycanda İslam partiyasının sosial bazası yalnız Nardarandan ibarətdir, bu partiyanın rəhbərləri və funksionerləri həmin kəndin sakinləridir.

Terrorçular beyni dumanlanmış insanlar arasında öz təbliğatını Yezidlə İmam Hüseynin vuruşması tarixi epozodu üzərində qurur, qulluq etdikləri dairələri İmam Hüseyn, hakimiyyəti isə Yezid kimi qələmə verirlər. İdarə etdikləri internet saytlarında, sosial şəbəkələrdə də təbliğatın başlıca tezisini məhz bu mövhumat təşkil edir. Terrorçular və ekstremistlər onların sırasına qoşulmayan, fikirlərini bölüşməyən və cəmiyyətin siyasi həyatında iştirak etməyən dindarları isə münafiqlər (dönüklər) kimi qələmə verirlər.

Sual edilir. Nəyə görə istər 2002-ci ildə, istərsə də sonrakı dövrlərdə analoji hadisələr Gəncədə, Lənkəranda, Naxçıvanda və ya Bakının digər kəndlərində deyil, məhz Nardaranda baş verir? Əgər noyabrın 25-26-da



Nardaranda baş verən hadisələr, hansısa terrorçu sektanın qiyamı, hüquq mühafizə orqanları əməkdaşlarının güllələnməsi Fransada və ya ABŞ-da baş versəydi, bu ölkələrin hakimiyyətləri hansı tədbirlər görərdi? Fransızlar "Şarli Ebdo" satirik jurnalının redaksiyasına olan hücumun, yaxud noyabrın ortalarında 129 nəfərin ölümünə səbəb olan terror aktının icraçıları və təşkilatçılarını məhv etdilər. ABŞ-da terrorçulara münasibət bəllidir, hətta Ferqyusonda dinc aksiyaçılarla qəddar davranış Vaşinqtonun hakimiyyətə qarşı çağırışlara və hərəkətlərə barışmaz olduğunu təsdiq edir. Şiələrin etirazları zamanı Bəhreynə, şiələrin hakimiyyətə gəldiyi Yəmənə qarşı Səudiyyə Ərəbistanının müdaxiləsi belə hallara qarşı necə davranıldığını açıq göstərir.

Ölkə başçısı dəfələrlə çıxışlarında bildirir ki, vəzifəsindən asılı olmayaraq hər kəs qanun qarşısında məsuliyyət daşıyır, heç kim toxunulmaz deyil. Sözsüz ki, bu demokratik inkişafın ən əsas əlamətlərindən biridir. Çünki qanunların işləmədiyi yerdə yalnız özbaşınalıq və xaos ola bilər. Ancaq Nardaranda polisləri güllələyən, vəzifəli şəxsləri, vətəndaşları ölümlə hədələyən terrorçular deyəsən bundan xəbərsiz olublar. İŞİD bayrağına oxşayan şüarların küçələri bəzədiyi, geyimi və davranışı orta əsr dövrünü xatırlayan insanların yaşadığı, terrorçuların at oynatdığı, dövlətdən kommunal xidmət görüb pulunu verməyən, dövlət orqanlarının həyata keçirdiyi tədbirləri sabotaj edən bir kəndə qarşı necə davranmaq lazımdır? Dövlət nəyə görə onu tanımaq istəməyən, ümumi normalara uyğun yaşamayan, bütün ictimai birgəyaşayış qaydalarını inkar edən və terrora qucaq açan bu "anklava" qarşı tədbir görməməlidir? Terrorçularla danışıq masası arxasına oturmaq olarmı?

Nardaran müalicəsinə ciddi ehtiyac duyulan bir xəstəlik mənbəyidir və lazım gələrsə, ən radikal metodlardan istifadə etməklə bu problemi qısa zamanda həllinə nail olmağın zamanıdır. Bu, ictimai sifarişdir. Artıq hüquq mühafizə orqanları Nardaranda konstitusiya normalarını bərpa ediblər. Vəziyyət tam nəzarətə götürülüb, terrorist qruplaşmalar zərərsizləşdirilib. Hər kəs anlamalıdır ki, Azərbaycan hüquqi dövlətdir və ölkəmiz qanunların aliliyini, ictimai-siyasi sabitliyi təmin etmək gücündədir.

**Nail Rəhimzadə,**
**"İki sahil"**